# Yeni parlament öz fəaliyyəti ilə ümidləri doğrultmağa çalışacaq



***Azərbaycan Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdyi yeni prioritetlərə uyğun olaraq, eləcə də yeni iqtisadi dönəm, eyni zamanda, müasir çağırışlar fonunda Milli Məclisin rolu və funksiyasının daha mühüm önəm daşıyacağı gözlənilir. Növbədənkənar parlamentin formalaşmasında da əsas məqsədlərdən biri qanunverici orqanın iqtisadi proseslərə, habelə islahatların dərinləşməsinə təsir imkanlarını gücləndirməkdən ibarətdir.***

Bu baxımdan, parlamentin ilk iclasında Azərbaycan Prezidenti tərəfindən Milli Məclisin fəaliyyəti ilə bağlı müəyyənləşdirilmiş prioritetlər, tövsiyələr qanunverici orqanın, xüsusən iqtisadi islahatların dərinləşməsi və iqtisadi qanunvericiliyin təkmilləşməsində daha yaxından iştirak edəcəyindən xəbər verir. Belə bir kontekstdən yanaşsaq, yeni parlamentin islahatlar baxımından rolunu bir neçə istiqamətdə xarakterizə etmək olar.

Əvvəla, Azərbaycan Prezidentinin tövsiyələrinə uyğun olaraq, yeni parlament iqtisadi qanunvericiliyin daha da təkmilləşdirməsi ilə bağlı fəaliyyətini gücləndirəcək. Xüsusən də neftin dünya bazar qiymətinin aşağı olduğu bir şəraitdə xarici amillərin aktivliyini, eləcə də dünya bazarlarında volatilliyin yüksək olduğunu nəzərə alsaq, iqtisadi qanunvericiliyinin təkmilləşdirilməsi daha da aktuallaşır. Bu səbəbdən, təbii ki, parlament qeyri-neft sektorunun inkişafı, eyni zamanda, iqtisadiyyatın diversifikasiyası ilə bağlı iqtisadi islahatlara birbaşa təsir və töhfə imkanlarına malik olmalıdır.

Digər istiqamət, parlamentin mövcud qanunların icra vəziyyətinin monitorinq edilməsindən və bu tip qiymətləndirməyə uyğun olaraq qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı yeni addımların atılmasından ibarət olacaq. Ölkə Prezidenti də xüsusilə vurğuladı ki, qəbul edilən qanunların, eləcə də qanunverici aktların icra vəziyyətinin yaxşılaşdırılması vacibdir və parlamentin bu istiqamətdə fəaliyyətinin gücləndirilməsi zəruridir. Bu baxımdan, şübhəsiz ki, qanunverici orqan sözügedən istiqamətdə fəaliyyətini daha da gücləndirəcək.

Eyni zamanda, parlamentlə mərkəzi icra hakimiyyəti orqanları arasında münasibətlərin yeni müstəviyə qədəm qoyması, eləcə də Milli Məclisin rolunun artırılması, mərkəzi icra orqanlarının məsuliyyətinin daha da gücləndirilməsi yeni islahatların əsas prioritetlərindən biridir. Bu baxımdan, parlamentin mərkəzi qurumlarla işinin yeni çağrışlara uyğun şəkildə qurulması nəzərdə tutulur. Bütün bunlara əsasən, qeyd etmək olar ki, yeni parlamentin iqtisadi islahatların genişlənməsinə daha yaxından töhfə vermək imkanına malik olacağı gözlənilir.

Milli Məclisin yeni tərkib və strukturunun, eyni zamanda, parlamentdə yeni rəhbərliyin formalaşması ondan xəbər verir ki, qanunverici orqan iqtisadi islahatların dəstəklənməsində təsir imkanlarını gücləndirəcəkdir. Artıq növbəti post-neft dövründə iqtisadiyyatın diversifikasiyası ilə bağlı islahatlara parlamentin təsir imkanlarının daha da artacağı gözlənilir. Bu da təbii ki, Milli Məclis qarşısında həm öhdəliklərin, həm də gözləntilərin kifayət qədər çox olması anlamına gəlir. Yeni parlament də öz fəaliyyəti ilə bu ümidləri doğrultmağa çalışacaqdır.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2020.- 12 mart.- S.6.